AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

PUL SİYASƏTİ İCMALI

Yanvar- Sentyabr 2019

№ 3

MÜNDƏRİCAT

ABREVİATURALAR

Xülasə		3
I. Qlobal iqtisadi mühit və xarici sektor		**4**
1.1.	Qlobal iqtisadiyyatda meyillər	4
1.2.	Azərbaycan iqtisadiyyatının xarici sektoru üzrə proseslər	13
II. Azərbaycanda makroiqtisadi proseslər		**16**
2.1.	Məcmu daxili tələb	16
2.2.	Məcmu təklif və məşğulluq	20
2.3.	İnflyasiya	23
III. Pul və məzənnə siyasəti		**28**
3.1.	Valyuta bazarı və manatın məzənnəsi	28
3.2.	Pul siyasəti alətləri	31
3.3.	Pul təklifi	34
İstifadə olunmuş qrafik və cədvəllər		36

ABREVİATURALAR

AMB	Azərbaycan Respublikasının Mərkəzi Bankı
AİB	Asiya İnkişaf Bankı
ASEAN	Cənubi-Şərqi Asiya Ölkələri
AYİB	Avropa Yenidənqurma və İnkişaf Bankı
BƏT	Beynəlxalq Əmək Təşkilatı
BVF	Beynəlxalq Valyuta Fondu
BOKT	Bank olmayan kredit təşkilatı
BXİ	Birbaşa Xarici İnvestisiyalar
DSK	Dövlət Statistika Komitəsi
FES	Federal Ehtiyatlar Sistemi
İEOÖ	İnkişaf Etməkdə Olan Ölkələr
İEÖ	İnkişaf Etmiş Ölkələr
İƏİT	İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı
İQİ	İstehlak Qiymətləri İndeksi
KİQİ	Kənd Təsərrüfatı Məhsullarının İstehsalçı Qiymətləri İndeksi
KOS	Kiçik və Orta Sahibkarlıq
NEM	Nominal Effektiv Məzənnə
MBK	Məcmu Buraxılış Kəsiri
OPEC	Neft İxrac Edən Ölkələrin Təşkilatı (Organization of the Petroleum Exporting Countries)
REM	Real Effektiv Məzənnə
RSM	Real Sektorun Monitorinqi
SİQİ	Sənaye Məhsullarının İstehsalçı Qiymətləri İndeksi
SKMF	Sahibkarlığa Kömək Milli Fondu
ÜDM	Ümumi Daxili Məhsul
ÜTT	Ümumdünya Ticarət Təşkilatı

XÜLASƏ

2019-cu ilin 9 ayında Mərkəzi Bankın pul siyasətinin məqsədi makroiqtisadi sabitliyin əsas göstəricisi olan inflyasiyanı elan edilmiş hədəf parametrləri (4±2%) səviyyəsində saxlamaq təşkil etmişdir.

Hesabat dövründə illik inflyasiya 2.5% təşkil etmişdir ki, bu da hədəf diapozonunun mərkəzindən aşağıdadır. Məcmu tələbin genişlənməsi və bir sıra qeyri-monetar amillərin qiymətlərə artırıcı təsirinə baxmayaraq ikitərəfli və nominal effektiv məzənnənin dinamikası, həmçinin monetar şərait aşağı inflyasiyanı şərtləndirmişdir. Azərbaycandakı inflyasiya ticarət tərəfdaşı olan ölkələrdəki orta inflyasiyadan əhəmiyyətli aşağı olmaqla manatın real effektiv məzənnəsinə azaldıcı təsir göstərmişdir.

Mərkəzi Bank özünün pul-məzənnə siyasətini cari ilin 9 ayında əlverişli beynəlxalq konyunktur, profisitli tədiyə balansı və strateji valyuta ehtiyatlarının artması şəraitində həyata keçirmişdir. 2019-cu ilin 9 ayında xarici ticarət balansında müsbət saldo olmuş, ixracın artımı monetar qızıl çıxılmaqla qeyri-neft idxalının artım tempini üstələmişdir. Xarici sektor göstəricilərinin yaxşılaşması valyuta bazarında tələb-təklif nisbətinə təsir göstərən başlıca amil olmuşdur.

Cari ilin 9 ayında monetar şərait neytrala yaxınlaşmaqla inflyasiya hədəfi və məcmu buraxılış kəsiri arasında optimal balansın qorunmasını dəstəkləmişdir. Hesabat dövründə də Mərkəzi Bank risklər balansını və son makroiqtisadi proqnozları nəzərə almaqla özünün likvidlik əməliyyatları üzrə faiz dəhlizinin parametrlərinə zəruri korreksiyalar etmiş, uçot dərəcəsi mərhələlərlə azaldılmışdır. Pul təklifi iqtisadiyyatın pula olan tələbinin ödənilməsinə və ödənişlərin fasiləsizliyinə kifayət edəcək səviyyədə tənzimlənmişdir. Mərkəzi Bank iqtisadiyyatın pula tələbini nəzərə almaqla sterilizasiya əməliyyatlarının qalığını əhəmiyyətli azaltmış, sterilizasiya alətlərinin müddət çeşidini genişləndirmişdir.

Yaradılmış makroiqtisadi sabitlik iqtisadi aktivliyə şərait yaradır. Cari ilin 9 ayında iqtisadi artım davam etmiş, xüsusən də qeyri-neft sektorunun ticari sahələrində iqtisadi aktivlik yüksəlmişdir. Mərkəzi Bank tərəfindən aparılan real sektorun monitorinqinin nəticələri iqtisadi aktivliyin yüksəldiyini təsdiqləyir.

I. QLOBAL İQTİSADİ MÜHİT VƏ XARİCİ SEKTOR

1.1. Qlobal iqtisadiyyatda meyillər

Qlobal iqtisadiyyatda 2018-ci ilin II rübündən başlayan yavaşlama 2019-cu ilin ötən dövründə də davam etmişdir. Beynəlxalq Valyuta Fondunun qiymətləndirmələrinə görə qlobal iqtisadi artım tempi qlobal maliyyə böhranından keçən dövr ərzində ən aşağı səviyyəyə enmişdir. Artmaqda olan ticari və geosiyasi gərginliklər biznes inamına, qlobal ticarətə və sənaye istehsalına mənfi təsir etməkdədir. Digər tərəfdən ABŞ-la Çin arasında ticarət razılaşması gözləntiləri, inflyasiya təzyiqlərinin aşağı olması, İEÖ-də və İEOÖ-də mərkəzi banklar tərəfindən pul siyasətinin yumşaldılması qlobal iqtisadi şərait haqda nikbin fikirlərə əsas verir .

Qlobal iqtisadi artım. Qlobal iqtisadiyyatda sinxron azalma davam etməkdədir, yəni iqtisadi daralma həm İEÖ-də, həm də İEOÖ-də müşahidə edilir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ölkələri üzrə Biznes İnam İndeksi aşağı düşməkdə davam etmişdir. İstehlakçı İnamı İndeksi I yarımillikdə artsa da, aşağıda göstərilmiş qrafikdən də göründüyü kimi II rübdən bəri azalmağa meyilli olmuşdur.

Qrafik 1. İƏİT ölkələrində qabaqlayıcı iqtisadi aktivlik indeksləri



Mənbə: İƏİT

İƏİT ölkələri üzrə sənaye məhsulu indeksi isə qrafik 2-dən göründüyü kimi, müxtəlif iqtisadi zonalar üzrə fərqli dəyişmişdir.

Qrafik 2. Sənaye məhsulu indeksi



Mənbə: İƏİT

İqtisadi aktivliyin aşağı səviyyəsi özünü qlobal ticarət və investisiyalarda da göstərməkdədir. Ümumdünya Ticarət Təşkilatının məlumatına əsasən 2019-cu ilin sonuna qlobal ticarət həcminin artımının cəmi 1.2% olması proqnozlaşdırılır. İEÖ-də yavaşlama ABŞ-Çin ticarət gərginlikləri, "Brexit"-lə bağlı qeyri-müəyyənliklər və bəzi sənaye sahələrində (məs. avtomobil) durğunluqdan qaynaqlanmışdır. İqtisadi Siyasət Tədqiqatı üzrə Stanford İnstitutunun məlumatına görə Qlobal İqtisadi Siyasət qeyri-müəyyənliyi indeksi artım meyilini qoruyur. Bu indeks qiymətləndirməyə görə son 20 ilin ən yüksək həddinə çatmışdır. İEOÖ üzrə zəif artım Türkiyə, İran, Argentina və Venesuela kimi ölkələrin özünəməxsus siyasi və makroiqtisadi faktorlarından irəli gəlməkdədir. Bunlara rəğmən dünya üzrə xidmət sektorundaki yüksək artım qlobal əmək bazarını dəstəkləmişdir.

ABŞ-da iqtisadiyyatın ekspansiyası davam edir. ABŞ İqtisadi Təhlil Bürosunun məlumatına əsasən ölkə iqtisadiyyatında 2019-cu ilin III rübündə 1.9% artım olmuşdur. Cari ildə də monetar və fiskal stimullar məşğulluğun yüksəlməsinə və ABŞ-ın iqtisadi inkişafına dəstək olmuşdur. Sentyabrda ABŞ-da işsizlik 0.2% azalaraq 3.5%-ə enmişdir ki, bu da son 49 ilin ən aşağı işsizlik səviyyəsidir. İlin əvvəlindən bəri ev təsərrüfatlarının xərcləri artır ki, bu da məşğulluğun və gəlirlərin artması, habelə istehlakçı etimadının yüksəlməsindən qaynaqlanır. Buna rəğmən ABŞ-da sənaye məhsuldarlığının zəif olduğu mühitdə fiskal stimulun və özəl sektora kreditlərin son 5 ildə ən yüksək səviyyəyə çatması bəzi iqtisadçı ekspertlərin maliyyə böhranı

gözləntilərini də artırmışdır. Digər tərəfdən özəl investisiyalar və ixrac zəif olaraq qalır.

Avropa Statistika Mərkəzinin (Eurostat) məlumatına əsasən 2019-cu ilin III rübündə Avrozonada Ümumi Daxili Məhsulun (ÜDM) artım tempi 1.1% səviyyəsində olmuşdur. İqtisadi artımın yüksəlməsinə 2018-ci ilin ortalarından bəri xarici tələbin azalması və sənaye məhsuldarlığının zəifləməsi mane olmuşdur. Buna baxmayaraq Avrozonada sentyabr ayında işsizlik 7.5% olmuşdur ki, bu da 2008-ci ildən bəri ən aşağı səviyyədir. İqtisadi aktivliyin aşağı düşməsinə cavab olaraq Fransa və Almaniya limitli vergi güzəştləri tətbiq etmək və dövlət xərclərini artırmaqla bağlı planlarını elan etmişlər. Bundan başqa son idarə heyəti iclasında Avropa Mərkəzi Bankı (AMB) bankları ucuz likvidliklə təmin etməyə davam edəcəyini bəyan etmişdir.

Birləşmiş Krallıqda III rübdə ÜDM-in artım tempi 1% səviyyəsində olmuşdur ki, bu da 2010-cu ildən bəri ən aşağı artım tempidir (mənbə: Milli Statistika Komitəsi). İqtisadi durğunluğun əsas səbəbi “Brexit”-lə bağlı davam edən qeyri-müəyyənliklərdir.

Yaponiyada II rübdə ÜDM-in artım tempi 1% təşkil etmişdir. İqtisadi artıma müsbət təsir edən əsas amillərə daxili istehlak və dövlət xərclərinin artması aiddir. Yaponiya hökuməti fiskal stimullar vasitəsilə məcmu tələbi və iqtisadi artım üçün perspektivləri dəstəkləyəcəyini bəyan etmişdir. Yaponiyada 2019-cu ilin sentyabr ayı üçün işsizlik səviyyəsi 2.4% olmuşdur ki, bu da bazar iştirakçılarının gözləntilərindən yuxarıdır (2.3%).

İqtisadi artım templəri üzrə bərabərsizlik İEOÖ üzrə də müşahidə edilir. Çində iqtisadi artım III rübdə illik 6%-ə düşmüşdür. 2019-cu ilin III rübündə işsizlik səviyyəsi 3.6% olmuşdur ki, bu da Çin tarixinin ən aşağı işsizlik göstəricisidir. Çindəki iqtisadi vəziyyətdən asılı olan Korea, Hong Kong, Singapur kimi digər inkişaf etmiş Asiya ölkələrində

də iqtisadi artım tempinin yavaşlaması müşahidə olunur.

III rübdə Rusiyada iqtisadi artım 1.9% təşkil etmişdir. Sentyabr ayında 4.5%-lik işsizlik qeydə alınmışdır ki, bu da keçən ayın səviyyəsindən 0.2 faiz bəndi yuxarıdır. Türkiyədə isə II rübdə 1.5% iqtisadi daralma qeydə alınmış, işsizlik səviyyəsi iyul ayında ötən ilə nəzərən 2.1% bəndi artaraq 13.9% təşkil etmişdir.

Qlobal əmtəə qiymətlərinin dəyişimi və inflyasiya prosesləri. 2019-cu ilin 9 ayında dünya bazarında əmtəə qiymətləri əmtəə qrupları üzrə fərqli istiqamətlərdə dəyişmişdir.

Dünya Bankının (DB) Əmtəə Bazarları haqqında son məlumatlarına əsasən enerji qiymətləri 2019-cu ilin ilk 5 ayında 13%-ə qədər yüksəlsə də, sentyabrda ilin əvvəlindəki səviyyəyə qayıtmışdır. 9 ayda qeyri-enerji əmtəə qiymətləri 1.3%, ərzaq qiymətləri 2.2% ucuzlaşmış, qiymətli metal qiymətləri isə 21.1% yüksəlmişdir.

Qrafik 3. Əmtəə qiymətləri indeksi (2010=100)



Mənbə:Dünya Bankı

Qiymətli metallardan qızılın qiyməti 2019-cu ilin 9 ayında 20.8% artmışdır.

Enerji qiymətlərindəki dəyişkənlik əsasən neft qiymətlərindəki bahalaşmadan və təbii qaz qiymətlərindəki ucuzlaşmadan qaynaqlanmışdır. Brent markalı neft 2019-cu ilin sentyabr ayının sonuna ilin əvvəlinə nəzərən 16.3% bahalaşmışdır. Ümumilikdə, 2019-cu ilin 9 ayında Brent markalı neftin orta qiyməti 64.8 ABŞ dolları səviyyəsində olmuşdur.

Qrafik 4. Dünya neft bazarı, milyon barrel/gün



Mənbə: Enerji İnformasiya Agentliyi (EİA)

Beynəlxalq Enerji Agentliyinin "Neft Bazarı" hesabatının sentyabr buraxılışına əsasən neft tələbinin artımının 2019 və 2020-ci illərdə müvafiq olaraq 1.1 mln. barel/gün və 1.3 mln. barel/gün olacağı proqnozlaşdırılır. 2019-cu ilin iyun ayında tələbin artımı cəmi 0.2 mln. barel/gün olmuşdur. Tələbin zəif artımının əsas amilləri İƏİT ölkələrində, Latın Amerikasında, Hindistanda, və Orta Şərqdə istehlakın azalması və ticarət gərginlikləridir. Digər tərəfdən Çində, Rusiyada və digər qeyri-İƏİT ölkələrində neftə tələbin artdığı müşahidə olunur.

Neft İxrac edən Ölkələr Birliyi (OPEC) üzvləri üzrə avqust ayında neft hasilatı ötən ilə nəzərən 2.4 mln. barel/gün azalmışdır. Azalma başlıca olaraq Səudiyyə Ərəbistanında hasilatın kəskin azalmasının davam etməsi, həmçinin İran və Venesuelaya qarşı sanksiyalarla bağlıdır. Digər tərəfdən Rusiya, Nigeriya və İraqın ümumi hasilatı OPEC və qeyri-OPEC neft ixracatçılarının keçən iclasında razılaşdırılmış rəqəmi 0.65 mln. barel/gün ötmüşdür. Qeyri-OPEC ölkələrdə isə keçən ilə nəzərən avqust ayında 1.6 mln. barel/gün artım qeydə alınmışdır. Ölkələrdən ən yüksək artım qasırğa sonrası hasilatı bərpa olunan ABŞ-da qeyd olunmuşdur. Bu, ABŞ-a neft ixracatçıları arasında birincilik uğrunda Rusiya və Səudiyyə Ərəbistanı ilə mübarizə aparmaq imkanı verir.

Enerji qiymətlərinin III rübün sonunda ilin əvvəlindəki səviyyəyə düşməsi enerji idxalatçısı olan bir sıra İEÖ və İEOÖ-də inflyasiyaya azaldıcı təsir göstərmişdir. Məcmu tələbin gözlənildiyindən daha aşağı artımı ilə

əlaqədar olaraq bəzi İEÖ-də (məsələn, ABŞ, Yaponiya) inflyasiya hədəfdən aşağıda qalmışdır. İEOÖ-də inflyasiya göstəriciləri isə ölkələr üzrə dəyişir. Sentyabr ayında ilin əvvəlinə nəzərən Rusiyada və Türkiyədə ən aşağı inflyasiya səviyyəsi qeydə alınmışdır (4% və 9.25%). Digər tərəfdən isə, Çində sentyabr ayında 2013-cü ildən bəri ən yüksək inflyasiya (3%) səviyyəsi qeydə alınmışdır.

Qlobal maliyyə bazarları və pul siyasəti. Hesabat dövründə ölkələr üzrə bazar faizləri müxtəlif istiqamətlərdə dəyişsə də, ümumilikdə qlobal maliyyə şəraiti yumşalmışdır. Dövr ərzində mərkəzi banklar tərəfindən 431 pul siyasəti qərarı verilmişdir. Bunlardan 99-u azalma, 22-i artım, 310-u sabit saxlama qərarı olmuşdur[1].

ABŞ-ın Federal Ehtiyat Sistemi (FES) 2019-cu ilin əvvəlindən bu yana faiz dərəcələrinə həsr olunmuş 7 görüş keçirmişdir. Görüşlərin 4-də faiz dərəcəsi sabit saxlanılmış, üçündə isə azaldılması qərara alınmış və 2.25-2.5%-dən mərhələlərlə 1.5-1.75%-ə qədər endirilmişdir.

Avropa Mərkəzi Bankı xalis aktiv alışlarını noyabr ayının 1-dən davam etdirəcəyini, faiz dərəcəsini artırmayacağını və ən azı 2020-ci ilin ortasına qədər yumşaq pul siyasətini davam etdirəcəyini bəyan etmişdir. Digər İEÖ-dən Yaponiya Mərkəzi Bankı da aşağı faiz dərəcələrini dəstəkləyən yumşaq pul siyasətini davam etdirəcəyini bəyan etmişdir.

Qrafik 5. Qlobal maliyyə indekslərinin dinamikası



Mənbə: Reuters

[1] Mənbə: www.centralbanknews.info, www.cbrates.com, www.countryeconomy.com/key-rates

Dövr ərzində qlobal iqtisadiyyatda gedən proseslər aparıcı fond indekslərinə də təsir göstərmişdir. 9 ayda Dow Jones indeksi 15.9% , S&P500 18.9%, Nikkei 8.5%, FTSEurofirst 300 15.4% və Shanghai indeksi 17.4% artım nümayiş etdirmişdir. Bəzi ekspertlərin fikrincə fond indekslərinin artımı real iqtisadi aktivliyə söykənmir.

İlin əvvəlindən bəri İEOÖ-in valyuta indeksləri ABŞ dollarına nisbətdə fərqli istiqamətlərdə dəyişmişdir. Türkiyədə geosiyasi gərginlik və ABŞ-ın sanksiyalarının nəticəsi olaraq Türk lirəsi 8.3% ucuzlaşmışdır. Buna baxmayaraq, Türkiyə Mərkəzi Bankı sentyabrda faiz dərəcəsini 19.75%-dən 16.5%-ə endirmişdir. Rusiya iqtisadiyyatı ilə bağlı müsbət gözləntilər və FES-in faiz qərarları Rus rublunun dollara qarşı bahalaşmasına gətirib çıxarmışdır. 2019-cu ilin 9 ayında ABŞ dolları rus rubluna nəzərən 7% ucuzlaşmışdır. Birləşmiş Krallıqda hesabat dövrü ərzində "Brexit"-lə bağlı qeyri-müəyyənlik funt-sterlinqin volatilliyinə səbəb olmuşdur. Fransa, Almaniya və İtaliya kimi ölkələrdə iqtisadi artımın gözləntiləri doğrultmaması və ticarət gərginliyi fonunda avro 3.1% ucuzlaşmışdır.

Qrafik 6. Dollara qarşı ikitərəfli məzənnələrin dəyişimi



Mənbə: Reuters

2019-cu ilin ötən dövründə kriptovalyuta bazarında volatillik davam etmişdir. Yanvarın əvvəlində 3650 ABŞ dolları olan Bitcoin iyunun sonunda ən yüksək səviyyəyə - 12806 ABŞ dollarına qalxdıqdan sonra, sentyabr ayının sonunda 7880 ABŞ dollarına qədər enmişdir. Ethereum, Ripple və Litecoin kimi digər kriptovalyutaların qiymətlərində də il ərzində eyni trend müşahidə olunmuşdur.

Proqnozlar və risklər. BVF-nun 2019-cu ilin oktyabr ayında yenilənmiş

"Qlobal İqtisadi Perspektivlər" hesabatında 2019-cu ilə qlobal iqtisadi artım proqnozu 3%-ə endirilmişdir (2019-cu ilin iyul hesabatına nəzərən 0.2 faiz bəndi azalma).

İEÖ-də iqtisadi artımın 2019-cu və 2020-ci ildə 1.7% olacağı proqnozlaşdırılır. İyul hesabatına nəzərən iqtisadi artım proqnozu 2019-cu ilə 0.2 faiz bəndi azalmış, 2020-ci ilə sabit saxlanmışdır. ABŞ-da fiskal stimulların zəifləməsi fonunda iqtisadi aktivliyin tədricən yavaşlaması gözlənilir.

Cədvəl 1. İqtisadi artım proqnozları

	2019	2020
Dünya	**3.0**	**3.4**
İEÖ	**1.7**	**1.7**
ABŞ	2.4	2.1
Avrozona	1.2	1.4
Yaponiya	0.9	0.5
İEOÖ	**3.9**	**4.6**
Rusiya	1.1	1.9
Çin	6.1	5.8

Mənbə: BVF

İEOÖ-də iqtisadi artımın 2019-cu ildə 3.9%, 2020-ci ildə isə 4.6% təşkil edəcəyi proqnozlaşdırılır. Bu da iyul hesabatına nəzərən müvafiq olaraq 0.2 faiz bəndi və 0.1 faiz bəndi aşağıdır.

Azərbaycanın ticarət tərəfdaşı olan ölkələrdə iqtisadi artım perspektivləri optimist olaraq qalır.

Qrafik 7. 2019-cu ilin sonuna Azərbaycanın ticarət tərəfdaşları üzrə iqtisadi artım proqnozu, %



Mənbə: BVF, "Qlobal İqtisadi Perspektivlər" hesabatı, Oktyabr buraxılışı, 2019.

BVF-nun "Qlobal İqtisadi Rerspektivlər" hesabatının oktyabr buraxılışına əsasən, iqtisadi artımın 2019-cu ildə Azərbaycanın ticarət tərəfdaşı olan Rusiyada 1.1%, Avrozonada 1.2%, Çində 6.1%, Qazaxıstanda 3.8% olacağı gözlənilir. İranda isə 9.5%-lik iqtisadi daralma olacağı proqnozlaşdırılır. Fiskal stimullaşma ilə bağlı BVF Türkiyə üçün

2019-cu ilə iqtisadi artım proqnozunu əhəmiyyətli artırmışdır.

Ümumilikdə Azərbaycanın ticarət tərəfdaşları olan ölkələrdə iqtisadi artımın orta hesabla 2019-cu ildə 1.3%, 2020-ci ildə isə 2.5% (qeyri-neft ixrac çəkili) olacağı proqnozlaşdırılır. Bunun Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoru üzrə həm ticarət, həm də investisiya axınlarına müsbət təsir edəcəyi gözlənilir.

Beynəlxalq təşkilatların və ekspertlərin qiymətləndirmələrinə görə 2019-cu ilin 9 ayında qlobal iqtisadiyyatda risklər artmışdır. Bu risklərə, ticarət maneələri, geosiyasi gərginliklər və daxili siyasi qərarların qeyri-müəyyənlikləri aiddir. ABŞ-ın Çin ixracatçılarına qarşı atdığı addımlar, miqrant axınının qarşısını almayacağı təqdirdə Meksikaya qarşı sanksiya təhdidləri, Birləşmiş Krallığın Avropa ittifaqından çıxması məsələsindəki qeyri-müəyyənliklərin davam etməsi qlobal artım üçün təhdid yaradır. Eyni zamanda, Türkiyə, İran və Argentina kimi İEOÖ-də ötən illərdə başlayan iqtisadi tənəzzül və valyuta təzyiqləri 2020-ci ilə bu ölkələrdə müsbət gözləntilərin yaranmasını əngəlləyir.

1.2 Azərbaycan iqtisadiyyatının xarici sektoru üzrə proseslər

2019-cu ilin 9 ayında Azərbaycanın xarici iqtisadi mövqeyi qeyri-neft ixracının genişlənməsi, eyni zamanda neftin dünya bazarlarında qiymətinin əlverişli olaraq qalması və qlobal ticarətdə artan qeyri-muəyyənliklərin əsas ticarət tərəfdaşlarına təsiri fonunda formalaşmışdır.

Dövlət Gömrük Komitəsinin (DGK) məlumatlarına əsasən 2019-cu ilin 9 ayında xarici ticarət dövriyyəsi 13.8% artaraq 25.2 mlrd. ABŞ dolları təşkil etmişdir ki, bunun da 14.9 mlrd. ABŞ dolları (və ya 58.9%-i) ixracın, 10.4 mlrd. ABŞ dolları (və ya 41.1%-i) isə idxalın payına düşmüşdür. Xarici ticarət balansında 4.5 mlrd. ABŞ dolları məbləğində müsbət saldo əmələ gəlmişdir.

Qrafik 8. Ticarət balansı, mlrd. ABŞ dolları



Mənbə: DGK

Dövr ərzində 186 ölkə ilə ticarət əməliyyatları həyata keçirilmişdir.

Qrafik 9. Ticarət dövriyyəsində əsas ölkələr, 2019 - 9 ay , %-lə



Mənbə: DGK

Ticarət dövriyyəsinin 38%-i Avropa İttifaqı (Aİ) ölkələrinin payına düşmüşdür. Aİ ilə ticarət əlaqələrinin 47%-i İtaliya,

14%-i İsveçrə, 13%-i Almaniya, 7%-i isə Fransa ilə həyata keçirilmişdir.

MDB ölkələrinin ümumi ticarət dövriyyəsində xüsusi çəkisi 13% olmuşdur. Bu istiqamətdə ticarət dövriyyəsinin 64%-i Rusiya, 19%-i Ukraynanın payına düşmüşdür.

Ticarət əlaqələrinin 49%-i isə digər ölkələrlə saxlanılmışdır. Bu ölkələr qrupunda əsas tərəfdaşlar Türkiyə (27%), Çin (13%), İsrail (9%), Hindistandır (8%).

Hesabat dövründə ixrac 4.1%, qeyri-neft ixracı 17% artmışdır. İxracın dəyəri xam neft üzrə 2.8%, neft məhsulları üzrə 18.7% azalmış, təbii qaz üzrə isə 76.1% artmışdır.

Qeyri-neft sektoru üzrə ixracı artan əsas məhsullar çay, pambıq lifi, pambıq iplik, meyvə-tərəvəz və kimya sənayesi məhsulları olmuşdur. Belə ki, ixracın dəyəri çay üzrə 2 dəfə, pambıq lifi 38.3%, kimya sənayesi məhsulları üzrə 34.6%, pambıq iplik üzrə 32.7%, meyvə-tərəvəz üzrə 13.8% artmışdır.

Qrafik 10. 2019-ci ilin 9 ayında bəzi məhsullar üzrə ixracın dəyişimi, %-lə



Mənbə: DGK

Dövr ərzində ixracda əsas tərəfdaşlar İtaliya (28.5%), Turkiyə (14.8%), İsrail (7.2%) Hindistan (5.6%), Almaniya (4.9%), Çin (4.7%) kimi ölkələr olmuşdur.

2019-cu ilin 9 ayında əmtəə idxalı 31.3% artmışdır. O cümlədən, dövlət sektoru üzrə əmtəə idxalı 2.3 dəfə artaraq 3.7 mlrd.manat, özəl sektor üzrə isə 2.3% artaraq 6 mlrd.manat olmuşdur. Dövlət sektoru üzrə idxalın artımı Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) tərəfindən iri partiya qızıl külçə alışı və Azərbaycana gətirilməsi ilə əlaqədardır.

İdxal olunmuş məhsulların 15.5%-i Rusiya, 11.6%-i İsveçrə, 11.1%-i Türkiyə, 9.3%-i Çin, 6.3%-i ABŞ, 4.9%-i Almaniya, 3.8%-i Kanada kimi ölkələrinin payına düşmüşdür.

Ötən ilin müvafiq dövrünə nəzərən idxal yeyinti məhsulları üzrə 17.9%, o cümlədən buğda 59%, meyvə-tərəvəz 17.1%, plastmassa və onlardan hazırlanan məmulatlar üzrə 14% artmış, əczaçılıq məhsulları, qara metallar və onlardan hazırlanan məmulatlar, mebel, tütün üzrə azalmışdır.

Qrafik 11. 2019 9 ay bəzi məhsullar üzrə idxalın dəyişimi, %-lə



Mənbə: DGK

2019-cu ilin 9 ayında ölkəyə daxil olan pul baratları 793.5 mln. ABŞ dolları təşkil etmişdir.

Hesabat dövründə də ölkədə xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala investisiya axınları davam etmişdir. Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə xarici mənbələrdən əsas kapitala yönəldilmiş investisiyaların həcmi 2019-cu ilin 9 ayında 2.9 mlrd. manat ekvivalentində olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş ümumi investisiyaların 28.5%-ni təşkil edir.

Xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən əsas kapitala yönəldilmiş vəsaitin çox hissəsi Böyük Britaniya, Türkiyə, Rusiya, İran, ABŞ, Yaponiya, Malaziya, İsveçrə və Norveç sərmayədarlarına məxsus olmuşdur.

2019-cu ilin sentyabr ayının sonuna ölkənin strateji valyuta ehtiyatları 49.3 mlrd. ABŞ dolları təşkil edərək 37 aylıq mal və xidmət idxalına kifayət etmişdir.

II. AZƏRBAYCANDA MAKROİQTİSADİ PROSESLƏR

2.1. Məcmu daxili tələb

2019-cu ilin 9 ayında iqtisadi artımın əsas hərəkətverici qüvvəsi daxili tələb amilləri olmuşdur.

İstehlak xərcləri. İstehlak xərclərinin artımı ötən dövrdə də davam etmişdir. Cari ilin 9 ayı ərzində istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə bazarda satılmış əmtəə və xidmətlərin həcmi ötən ilin müvafiq dövrünə nəzərən real ifadədə 2.9% artaraq 35.2 mlrd. manata çatmışdır. Təsərrüfat subyektləri tərəfindən bazarda satılmış məhsulların və göstərilmiş xidmətlərin 96%-i özəl sahibkarlıq subyektləri tərəfindən yaradılmış, onun da 47.5%-i fərdi sahibkarların payına düşmüşdür.

Qrafik 12. İstehlak bazarında satışların həcminin real dəyişməsi, ö.i.m.d.n %-lə



Mənbə: DSK

Hesabat dövründə hər bir istehlakçı orta hesabla ayda 395.9 manatlıq və ya özundən əvvəlki ilin müvafiq dövrünə nəzərən 16.7 manat daha çox əmtəə və ödənişli xidmətlərdən istifadə etmişdir.

Dövr ərzində pərakəndə ticarət dövriyyəsinin həcmi ötən ilin eyni dövrünə nəzərən 3% artaraq 27.6 mlrd. manata çatmışdır. Ərzaq məhsulları üzrə pərakəndə əmtəə dövriyyəsi 2.6%, qeyri-ərzaq məhsulları üzrə dövriyyə isə 3.3% artmışdır.

2019-cu ilin yanvar-sentyabr aylarında istehlakçıların pərakəndə ticarət şəbəkələrində xərclədiyi vəsaitin 50.6%-i

qida məhsulları, içkilər və tütün məmulatlarının alınmasına sərf edilmişdir. Bu istiqamət üzrə xərclər ötən ilin müvafiq dövrü ilə müqayisədə 2.6% artmışdır. Toxuculuq, geyim və ayaqqabı sahəsinə xərclənən vəsaitlər 3.3%, elektrik malları və mebel sahəsinə 2.4%, telekommunikasiya və kompüter avadanlıqları sahəsinə 2.3%, digər qeyri-ərzaq malları sahəsinə sərf olunan xərclər isə 4% artmışdır.

Cədvəl 2. Ticarət şəbəkələrində xərc istiqamətlərinin payı, %-lə

Xərc istiqaməti	Xüsusi çəki, %-lə	
	2018 9 ay	2019 9 ay
Qida məhsulları, içkilər və tütün məmulatları	50.2	50.6
Toxuculuq malları, geyim və ayaqqabılar	18.1	18.1
Elektrik malları və mebel	5.8	6.2
Kompyuterlər, telekommunikasiya avadanlıqları və digər məmulatlar	0.7	0.8
Əczaçılıq və tibbi mallar	1.2	1.3
Avtomobil yanacağı	5.7	5.5
Digər qeyri-ərzaq malları	18.9	17.5

Mənbə: DSK

Dövr ərzində hər bir istehlakçı fərdi istehlak məqsədi ilə pərakəndə ticarət müəssisələrində qida məhsulları, içkilər və tütün məmulatları üçün orta hesabla ayda 156.7 manat, qeyri-ərzaq malları üçün isə 153.1 manat vəsait sərf etmişdir.

9 ay ərzində ictimai iaşə dövriyyəsi ötən ilin müvafiq dövrünə nəzərən 5.4% artmışdır. Özəl sektorda ictimai iaşə dövriyyəsinin təxminən 41.8%-i müəssisələrin, 58.2%-i isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin payına düşmüşdür. Həmçinin dövr ərzində əhaliyə göstərilən pullu xidmətlərin dəyəri real ifadədə 2.1% artaraq 6.6 mlrd. manata çatmışdır. Adambaşına düşən pullu xidmət istehlakı ötən ilin eyni dövrünə nəzərən nominal ifadədə 23.3 manat artmışdır.

Əhalinin nominal gəlirlərinin artımı hesabat dövründə istehlak tələbini dəstəkləyən başlıca amil olmuşdur. Belə ki, 9 ay ərzində əhalinin pul gəlirləri nominal olaraq 6.7% artmış və 42.2 mlrd. manat təşkil etmiş, adambaşına düşən pul gəlirləri 5.8% artaraq 4266.2 manata

çatmışdır. Əhalinin sərəncamında qalan gəlirlər isə 6.6% artımla 38.7 mlrd. manat təşkil etmişdir.

Dövr ərzində iqtisadiyyatda muzdla çalışan işçilərin nominal orta aylıq əmək haqqı 8.9% artaraq 589.3 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin orta əmək haqqı 484.4 manat, özəl müəssisələrdə çalışanların orta maaşı isə 724.6 manat olmuşdur.

İstehlak tələbinin komponentlərindən biri olan ev təsərrüfatlarına verilən kreditlərdə dövr ərzində 13% artım müşahidə olunmuşdur. Sentyabr ayında ev təsərrüfatları üzrə kredit portfelinin həcmi 7.1 mlrd. manata çatmışdır.

2019-cu ilin sentyabr ayında keçirilmiş "Ev təsərrüfatlarının maliyyə davranışları və niyyətləri" sorğusunun nəticələri əsasında hesablanmış İstehlakçı İnamı İndeksinin yaxşılaşması davam etmişdir. Qeyd edək ki, bu göstərici müxtəlif gəlir səviyyəsinə malik ev təsərrüfatları arasında "Ailənin maliyyə vəziyyəti gözləntisi", "Ölkənin iqtisadi vəziyyətinə dair gözlənti", "Pul yığımı ehtimalı" və "İşsizlik gözləntiləri"nə dair sorğulara əsaslanır. Təhlillər göstərir ki, İstehlakçı İnamı İndeksinin yüksəlməsi əsasən ölkənin və ailənin maliyyə vəziyyətinə dair gözləntilərin yaxşılaşması, habelə işsizlik gözləntilərinin aşağı düşməsi ilə əlaqədardır.

Hökumətin xərcləri. 2019-cu ilin yanvar-sentyabr ayları ərzində də dövlət xərcləri daxili tələbin dəstəklənməsində əhəmiyyətli rol oynamışdır. Dövr ərzində dövlət büdcəsinin xərcləri 16691 mln. manat təşkil etmişdir ki, bu da özündən əvvəlki ilin müvafiq dövrünə nəzərən 6.5% çoxdur.

İqtisadi təsnifata uyğun olaraq dövlət büdcəsi xərclərinin 35.3%-i və yaxud 5888.7 mln. manatı sosial yönümlü xərclərin (əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) maliyyələşdirilməsinə yönəldilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 8.8% çoxdur.

İnvestisiya xərcləri. 2019-cu ilin 9 ayında ölkə iqtisadiyyatına investisiya qoyuluşu 10146.2 mln. manat təşkil etmişdir. Qeyri-neft sektoruna 6346.8 mln. manat həcmində vəsait yönəldilmişdir ki, bu da ötən ilin eyni dövrünə nəzərən 8.9% çoxdur. Cəmi investisiya qoyuluşlarının 48%-i dövlət, 52%-i özəl sektorun payına düşmüşdür.

Əsas kapitala yönəldilmiş investisiyaların 71.5%-i daxili mənbələr, 28.5%-i isə xarici mənbələr hesabına formalaşmışdır.

Cədvəl 3. İnvestisiya mənbələri, %-lə

	2018, 9 ay	**2019, 9 ay**
Müəssisə və təşkilatların vəsaitləri	51.1	57.5
Bank kreditləri	13.6	7.3
Büdcə vəsaitləri	25.7	26.9
Büdcədənkənar fondların vəsaitləri	1.8	1.5
Əhalinin şəxsi vəsaiti	7	6.6
Sair vəsaitlər	0.8	0.2

Mənbə:DSK

Hesabat dövründə əsas kapitala yönəldilmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların vəsaitləri (57.5%) üstünlük təşkil etmişdir.

2.2. Məcmu təklif və məşğulluq

İqtisadi aktivliyin yüksəlməsi meyili 2019-cu ilin yanvar-sentyabr aylarında da davam etmişdir. Qeyri-neft sektorunda iqtisadi artım başlıca olaraq ticari sahələrdən qaynaqlanmışdır.

İqtisadi artım. DSK-nın məlumatına əsasən 2019-cu ilin yanvar-sentyabr aylarında ÜDM ötən ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 2.5% artmış və nominal olaraq 58.5 mlrd.manat təşkil etmişdir. ÜDM-in 42.5%-i sənayedə istehsal edilmişdir. Adambaşına düşən ÜDM-in həcmi 5910.1 manat olmuşdur.

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1.1% artmışdır. Hesabat dövründə 28.1 milyon ton əmtəəlik xam neft, 17.9 milyard kub metr əmtəəlik təbii qaz hasil olunmuşdur. Ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq neft hasilatı 2.8 faiz azalmış, qaz hasilatı isə 29.3 faiz artmışdır.

Qrafik 13. Əlavə dəyərin sektorlar üzrə bölgüsü, %- lə



Mənbə:DSK

Qeyri neft-qaz sektorunda 2019-cu ilin ilk 9 ayında yaradılan əlavə dəyər 2018-ci ilin müvafiq dövrünə nisbətən real ifadədə 3.5% artmış və nominal olaraq 35.5 milyard manat təşkil etmişdir. Onun ÜDM-də xüsusi çəkisi 60.7%-ə çatmışdır.

Hesabat dövründə qeyri neft-qaz sektorunun əksər sahələri üzrə artım qeydə alınmışdır. Qeyri neft-qaz sənayesi, kənd təsərrüfatı, informasiya və rabitə kimi sahələr daha yüksək artım nümayiş etdirmişlər.

Dövr ərzində əvvəlki ilin yanvar-sentyabr ayları ilə müqayisədə qeyri neft-qaz sənayesində 15.6% artım müşahidə olunmuşdur.

2019-cu ilin yanvar-sentyabr aylarında 2018-ci ilin müvafiq dövrünə nisbətən məhsul buraxılışı qeyri-neft sənayesinin qida məhsullarının istehsalı sektorunda 15.1%, toxuculuq sənayesində 39.2%, kompüter, elektron və optik məhsulların istehsalında 77.2%, mebellərin istehsalında 29.5%, rezin və plastik kütlə məmulatlarının istehsalında 26.1%, kimya sənayesində 20.6%, içki istehsalında 40.4%, tütün məmulatlarının istehsalında 78.5% artım göstərmişdir.

Ümumilikdə, sənayedə 2019-cu ilin yanvar-sentyabr aylarında 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə uzunmüddətli istifadədə olan istehlak mallarının istehsalı 38.2%, qısamüddətli istifadədə olan malların istehsalı 15.5%, istehsal vasitələrinin istehsalı 25.7%, enerji məhsullarının istehsalı 0.9% artmışdır.

Ötən ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 7.1%, o cümlədən heyvandarlıq məhsulları üzrə 3.1%, bitkiçilik məhsulları üzrə isə 11% artmışdır.

Qrafik 14. 2019-cu ilin 9 ayında sahələr üzrə əlavə dəyərin real artımı, ö.i.m.d.n., %



Mənbə:DSK

Mərkəzi Bank tərəfindən real sektorun monitorinqi üzrə aparılan sorğunun nəticələrinə əsasən 2019-cu ilin ilk 9 ayı ərzində ticarət və xidmət sahələri üzrə, o cümlədən qeyri-neft sənayesinin, tikinti, plastik və ərzaq məhsullarının istehsalı sahələrində iqtisadi aktivlik göstəricilərinin yaxşılaşması müşahidə olunmuşdur. Bu sahələr üzrə dinamika ümumi biznes inam indeksinin (Bİİ) artması ilə nəticələnmişdir. Tikinti sektoru isə hələ də mənfi diapazonda qərarlaşsa da,

Bİİ ilin əvvəlinə, həmçinin ötən ilin müvafiq dövrünə nəzərən yaxşılaşmışdır.

Məşğulluq. 2019-cu ilin sentyabr ayının sonuna ölkədə iqtisadi fəal əhalinin sayı 5195.3 min nəfər təşkil etmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 57.8 min nəfər çoxdur.

DSK-nın məlumatına görə, muzdla çalışan işçilərin sayı 2019-cu ilin 1 sentyabr tarixinə ötən ilin müvafiq dövrü ilə müqayisədə 4.6% artaraq 1611.1 min nəfər olmuşdur.

Qrafik 15. İqtisadi fəal əhalinin sayı, dövrün sonuna, min nəfərlə



Mənbə:DSK

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 24.1%-i məhsul istehsalı sahələrində, o cümlədən, 7.4%-i emal sənayesi, 7.5%-i tikinti, 3.3%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 2.2%-i mədənçıxarma, 1.9%-i su təchizatı və tullantıların emalı sənayesində fəaliyyət göstərirlər.

Mərkəzi Bank tərəfindən real sektorun monitorinqi üzrə aparılan sorğunun nəticələrinə 2019-cu ilin üçüncü rübündə müəssisələrin məşğulluq gözləntiləri ticarət, xidmət və tikinti sektorlarında artmışdır.

2.3. İnflyasiya

2019-cu ilin 9 ayında inflyasiya elan edilmiş illik hədəf diapazonunun mərkəzindən aşağıda qərarlaşmışdır. İnflyasiyanın aşağı təkrəqəmli səviyyədə qərarlaşması əhalinin real gəlirlərinin artımını dəstəkləyən mühüm amillərdən biri olmuşdur.

İstehlak Qiymətləri İndeksi (İQİ). DSK-nın məlumatlarına əsasən 2019-cu ilin 9 ayında orta illik inflyasiya 2.6% təşkil etmişdir. İQİ-nin komponentləri olan orta illik ərzaq qiymətləri 3.5%, qeyri-ərzaq qiymətləri 1.3%, xidmətlər isə 2.4% bahalaşmışdır.

Qrafik 16. Yanvar-sentyabr aylarında orta illik inflyasiya, %



Mənbə: DSK

Orta illik inflyasiyanın dəyişiminə 1.1% bəndi ərzaq, 0.6% bəndi qeyri-ərzaq, 0.9% bəndi isə xidmətlərin qiymət dəyişimi töhvə vermişdir.

12 aylıq inflyasiya 2019-cu ilin sentyabr ayında 2.5% (sentyabrda ötən ilin eyni ayına nəzərən İQİ-nin dəyişimi) təşkil etmişdir ki, bu da Mərkəzi Bankın elan etdiyi hədəf (4±2%) çərçivəsinin mərkəzindən aşağıdır. Cari ildə illik inflasiyanın pik səviyyəsi iyul ayına (3.6%) təsadüf etmişdir.

Qrafik 17. 12 aylıq inflyasiya, %-lə (ötən ilin eyni ayı ilə müqayisədə İQİ-nin dəyişimi)



Mənbə: DSK, AMB-nin hesablamaları

İstehlakın genişlənməsi şəraitində illik 5.1% səviyyəsində yüksələn ərzaq qiymətləri ümumi inflyasiyaya

əhəmiyyətli təsir payını qoruyur. Xarici tələbin yüksəlməsi fonunda bəzi kənd təsərrüfatı məhsullarının daxili bazarda təklifinin dəyişimi və dünya bazarında ərzaq qiymətlərinin bahalaşması da ərzaq qiymətlərinin dinamikasına artırıcı təsir göstərir. Dünya ərzaq qiymətləri son 1 il ərzində 3.3%, o cümlədən, ət məhsulları üzrə 10.8%, şəkər üzrə 4.1% yüksəlmişdir.

İnflyasiyanın digər komponentləri olan qeyri-ərzaq məhsulları və xidmətlər üzrə illik bahalaşma templəri isə (müvafiq olaraq 1.2% və 0.1%) hədəf diapazonunun mərkəzindən əhəmiyyətli aşağıda qalır. İnzibati qiymətlərin sabitliyi də qeyri-ərzaq və xidmət inflyasiyasının aşağı tempini şərtləndirən əsas amillərdəndir.

İstehlak səbətində qiyməti artan və azalan məhsul və xidmətlərin sayındakı fərqin dəyişim dinamikasını göstərən diffuziya indeksi[2] ilin əvvəlindən etibarən azalmış, son 3 ayda isə bu göstərici üzrə artım müşahidə edilmişdir.

Qrafik 18. İnflyasiyanın miqyası



Mənbə: DSK, DSK-nın məlumatları əsasında AMB-nin hesablamaları

Ümumilikdə, 9 ay ərzində 520 adda mal və xidmətdən 119-un qiyməti azalmış, 42-nin qiyməti isə dəyişməz qalmışdır. Bahalaşan məhsulların 55%-ində qiymət artımı 2%-dən aşağı olmuşdur.

2019-cu ilin 9 ayında məcmu tələbin genişlənməsi və bir sıra qeyri-monetar amillərin qiymətlərə artırıcı təsirinə baxmayaraq ikitərəfli və nominal effektiv məzənnənin dinamikası, inflyasiya gözləntilərinin faktiki inflyasiya səviyyəsində qərarlaşması, həmçinin

[2] İndeks (artan-azalan)/(azalan+dəyişməyən) şəklində hesablanır.

monetar şərait inflyasiyanın hədəf çərçivəsində qalmasını şərtləndirmişdir.

Qiymətləri dövlət tərəfindən tənzimlənən məhsullar və xidmətlər, həmçinin mövsümi xarakter daşıyan kənd təsərrüfatı məhsullarının qiymət dəyişimi nəzərə alınmadan hesablanan orta illik baza inflyasiya 2019-cu ilin yanvar-sentyabr aylarında 2.6% təşkil etmişdir.

Qeyd edildiyi kimi, dövr ərzində inflyasiyanın hədəf diapazonunda qərarlaşmasına təsir göstərən amillərdən biri gözləntilər olmuşdur. Aşağı faktiki inflyasiya fonunda inflyasiya gözləntiləri stabil olaraq qalır. Mərkəzi Bank tərəfindən aparılan real sektorun monitorinqinin nəticələrinə əsasən 2019-cu ilin yanvar-sentyabr aylarında növbəti 3 ay üzrə qiymət gözləntiləri emal sənayesində azalmış, ticarət sektorunda artmış, tikinti və xidmət sektorunda isə dəyişməmişdir. Qiymət gözləntiləri emal sənayesinin tikinti materiallarının istehsalı, tekstil, maşınqayırma, plastik kütlə və qeyri-metal mineral məhsulların istehsal sahələri üzrə azalmış, yeyinti, kimya və metallurgiya sahələri üzrə isə artmışdır.

4250 ev təsərrüfatı arasında aparılmış monitorinqlər inflyasiya tempinin artması üzrə gözləntilərin 2019-cu ilin yanvar-sentyabr aylarında azaldığını göstərir.

Qrafik 19. İnflyasiyanın yüksəlməsini gözləyən ev təsərrüfatlarının payı



Mənbə: RSM əsasında AMB-nin hesablamaları

Aparılmış sorğular əsasında müəyyən edilmişdir ki, 2019-cu ilin sentyabr ayı üzrə respondentlərin yalnız 2.4%-i növbəti 12 ayda inflyasiyanın yüksələcəyini gözləyir. Rəyi soruşulanların 41.2%-i gələcək 12 ayda qiymətlərin eyni səviyyədə artacağını, 37.2%-i qiymətlərin daha az səviyyədə

artacağını, 17.1%-i qiymətlərin təxminən eyni qalacağını və 2.1%-i isə qiymətlərin azalacağını gözləyir.

2019-cu ilin sonuna inflyasiyanın hədəf daxilində (4±2%) qalacağı proqnozlaşdırılır.

İstehsalçı qiymətləri indeksi. DSK-nın məlumatlarına əsasən ölkə daxilində istehsal olunan bütün mal və xidmətlərin qiymət dəyişməsini əks etdirən ÜDM deflyatoru 2019-cu ilin yanvar-sentyabr aylarında 1.2 % azalmışdır.

İstehsalçı qiymətləri indeksi kənd təsərrüfatı məhsulları üzrə daha çox dəyişmişdir. 2019-cu ilin yanvar-sentyabr aylarında kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətlərində 3.6 %-lik artım müşahidə olunmuşdur. Eyni dövrdə qiymətlər heyvandarlıq məhsulları üzrə 3.8%, bitkiçilik məhsulları üzrə isə 2.7% artmışdır. Bununla yanaşı meşə təsərrüfatı məhsulları üzrə istehsalçı qiymətləri dəyişməmiş, balıq və sair balıqçılıq məhsulları üzrə isə 3.2% artmışdır.

Ötən ilin müvafiq dövrünə nəzərən sənaye məhsullarının istehsalçı qiymətləri indeksi cari ilin 9 ayında 3.1% artmışdır. Qiymət dəyişimi daha çox emal sənayesi (7.6% artım) ilə bağlı olmuşdur.

Emal sənayesi üzrə ən çox bahalaşma tütün məmulatlarının istehsalı (31.1%), zərgərlik məmulatları, musiqi alətləri, idman və tibb avadanlıqlarının istehsalı (22.8%) və velosipedlərin istehsalı (28.2%) üzrə müşahidə edilmişdir.

Qrafik 20. İstehsalçı qiymətləri indeksinin orta illik dəyişimi, %



Mənbə: DSK

2019-cu ilin yanvar-sentyabr aylarında nəqliyyat xidmətlərinin qiymətləri 1.3% azalmışdır. Nəqliyyatda yükdaşıma xidmətlərinin qiyməti 1.6%

azalmış, sərnişin daşıma xidmətlərinin qiyməti isə 0.5% artmışdır. Bununla yanaşı, poçt və kuryer xidmətlərinin qiyməti 0.1% artmış, rabitə xidmətlərinin qiyməti isə dəyişməmişdir.

III. PUL VƏ MƏZƏNNƏ SİYASƏTİ

3.1. Valyuta bazarı və manatın məzənnəsi

2019-cu ilin 9 ayında manatın xarici valyutalara nəzərən məzənnəsi valyuta bazarında tələb-təklif nisbəti və tədiyə balansındakı meyillərə uyğun olaraq formalaşmışdır.

İqtisadi subyektlərin xarici iqtisadi əməliyyatlarının dinamikası cari ildə də valyuta bazarında əməliyyatların həcmini müəyyənləşdirən başlıca amil olmuşdur.

9 ayda qeyri-nağd valyuta bazarında aparılmış əməliyyatların həcmi 19.5 mlrd. ABŞ dollar ekvivalentində [3] olmuşdur. Dövr ərzində qeyri-nağd valyuta bazarında əməliyyatların 81.8%-i ABŞ dollarında, 18.2%-i digər valyutalarda aparılmışdır.

Qeyri-nağd valyuta əməliyyatlarının 33.6%-i banklararası valyuta bazarında (BVB), 66.4%-i isə bankdaxili valyuta bazarında (BDVB) reallaşdırılmışdır.

Hesabat dövründə BVB-də əməliyyatların 95.5%-i ABŞ dollarında, 4.2%-i Avroda, 0.3%-i isə digər valyutalarda aparılmışdır. BVB-də valyuta əməliyyatları üzrə dövriyyə əsasən "Bloomberg" platformasında aparılan əməliyyatlar hesabına formalaşmışdır.

BDVB-də valyuta əməliyyatlarının həcmi 12.9 mlrd. dollar ekvivalentində olmuşdur ki, bunun da 74.8%-ni ABŞ dolları ilə əməliyyatlar təşkil etmişdir. BDVB-də valyuta əməliyyatlarının 91.4%-i hüquqi şəxslərlə aparılan valyuta əməliyyatlarının payına düşür.

Banklar tərəfindən nağd xarici valyutanın alqı-satqısı üzrə aparılmış əməliyyatların həcmi hesabat dövründə 4.1 mlrd. ABŞ dolları ekvivalentində olmuşdur. Bunun 3.2 mlrd. dollarını və ya 78%-ni ABŞ dolları ilə aparılmış əməliyyatlar təşkil etmişdir.

Dövr ərzində Mərkəzi Bankda Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) valyuta satışlarının həyata keçirilməsi üzrə hərracların təşkili davam etdirilmişdir. Valyuta hərracları

[3] *ABŞ dolları, Avro, İngilis funt sterlinqi, Rus rublu ilə əməliyyatlar daxil olmaqla*

həftədə iki dəfə keçirilmiş, hər bir hərracın parametrləri haqqında məlumatlar hərrac başlamazdan əvvəl "Bloomberg" terminalı vasitəsilə bazar iştirakçılarına elan edilmişdir. 2019-cu ilin 9 ayında Mərkəzi Bankda ümumilikdə 75 valyuta hərracı keçirilmişdir.

Cari ilin 9 ayında da manatın ABŞ dollarına nəzərən rəsmi məzənnəsi banklararası əqdlər üzrə orta məzənnə ("Bloomberg" platformasında hərraclar və hərracdan kənar əməliyyatlar nəzərə alınmaqla) əsasında müəyyən edilmişdir.

Dövr ərzində manatın ABŞ dollarına qarşı orta günlük rəsmi məzənnəsi 1.7 manat təşkil etmişdir. Banklar tərəfindən müəyyən edilən xarici valyutanın alış-satış məzənnələri dəyişkənlik nümayiş etdirsə də rəsmi məzənnəyə yaxın olmuşdur. 9 ay ərzində kommersiya banklarının orta hesabla günlük alış məzənnəsi 1.6977, satış məzənnəsi isə 1.7021 manat təşkil etmişdir. Rəsmi məzənnə ilə kommersiya banklarının orta günlük alış məzənnəsi arasında fərq 0.1% (0.0023 manat), satış məzənnəsi ilə isə 0.1% (0.0021 manat) olmuşdur.

Dövr ərzində manat türk lirəsinə qarşı 6.6%, avroya qarşı 4.5%, gürcü larisinə qarşı 9.8% bahalaşmışdır. Eyni zamanda milli valyuta Ukrayna qrivnasına qarşı 14.3%, Rusiya rubluna qarşı 7.3%, yapon yeninə qarşı 2.6% ucuzlaşmışdır.

İkitərəfli məzənnələrin dinamikası çoxtərəfli məzənnənin dinamikasına da təsir göstərmişdir. 9 ayda manatın qeyri-neft ümumi ticarət çəkili nominal effektiv məzənnəsi 1.4% bahalaşmış, real effektiv məzənnəsi isə 1.3% ucuzlaşmışdır. Real effektiv məzənnənin ucuzlaşması Azərbaycanda inflyasiyanın ticarət tərəfdaşı olan ölkələr üzrə orta inflyasiyadan əhəmiyyətli az olması ilə izah edilir.

Qrafik 21. Effektiv məzənnə indeksləri
(illik dəyişmə)



Mənbə: AMB

Qeyd edək ki, 2014-cü ilin sonundan bəri REM 33.1% ucuzlaşmışdır ki, bu da qeyri neft-qaz sektorunun rəqabət qabiliyyətinə müsbət təsir göstərir.

3.2. Pul siyasəti alətləri

2019-cu ilin 9 ayında pul siyasəti alətləri faktiki inflyasiyanın hədəf diapazonunun mərkəzindən aşağıda olması və bank sistemində izafi likvidlik nəzərə alınmaqla tətbiq edilmişdir.

Hesabat dövründə Mərkəzi Bank makroiqtisadi meyilləri, yenilənmiş proqnozları, habelə daxili və xarici riskləri nəzərə almaqla özünün likvidlik əməliyyatları üzrə faiz dəhlizinin parametrlərinə zəruri düzəlişlər etmişdir. Mərkəzi Bankın İdarə Heyəti 2019-cu ilin 9 ayı ərzində faiz dəhlizinin parametrlərini 6 dəfə müzakirə etmişdir. Uçot dərəcəsinin mərhələlərlə 9.75%-dən 8%-ə, faiz dəhlizinin yuxarı həddinin 11.75%-dən 9.75%-ə, aşağı həddinin isə 7.75%-dən 6.25%-ə endirilməsi barədə qərarlar qəbul edilmişdir. Mərkəzi Bankın İdarə Heyətinin sentyabr ayının 13-də keçirilmiş iclası üzrə isə faiz dəhlizinin diapazonu daralmış və dəhlizin yuxarı və aşağı hədləri uçot dərəcəsinə ±1.75%-lik (bundan əvvəl ±2%) diapazonda müəyyən edilmişdir. Faiz dəhlizinin parametrləri barədə növbəti qərarlar inflyasiya hədəfinə nail olunması vəziyyəti, xarici və daxili risk balansında dəyişikliklər, xüsusən də fiskal stimulların qiymətlərə transmissiyasından asılı olaraq qəbul ediləcəkdir.

Hesabat dövründə iqtisadiyyatın pula tələbinin təmin edilməsi və likvidliyin effektiv idarə olunması məqsədilə Mərkəzi Bank müxtəlif müddətli bazar əməliyyatlarını aktiv saxlamışdır. Cari ilin 9 ayında kredit aktivliyinin nisbətən yüksəlməsinə baxmayaraq bank sistemində iri həcmli likvidlik profisiti qalmaqda davam etmişdir. Bu da Mərkəzi Bankın həyata keçirdiyi sterilizasiya əməliyyatlarına yüksək tələbi şərtləndirmişdir.

Qrafik 22. Faiz dəhlizinin parametrləri,%



Mənbə: AMB

Hesabat dövründə Mərkəzi Bank milli valyutada sərbəst vəsaitlərin cəlb olunması üzrə 40 depozit hərracı, notların yerləşdirilməsi üzrə 40 hərrac keçirmişdir. Depozit əməliyatları vasitəsilə vəsaitlər 14 gün müddətinə cəlb edilmiş, notlar isə 28 və 84 gün müddətinə yerləşdirilmişdir. Eyni zamanda izafi likvidliyin steriliziasiya imkanlarının artırılması məqsədilə dövriyyəyə daha uzunmüddətli (168 gün, 252 gün və s) notların buraxılmasına başlanılmışdır.

Hesabat dövrünün sonuna depozit əməliyyatları və notların yerləşdirilməsi vasitəsilə cəlb edilən vəsaitin cəmi qalığı 950 mln. manat olmuşdur.

Qrafik 23. Mərkəzi Bank tərəfindən cəlb edilən depozitlərin həcmi və gəlirliyi



Mənbə: AMB

Bundan depozit əməliyyatları ilə cəlb edilmiş vəsaitlər 250 mln. manat, notların yerləşdirilməsi nəticəsində cəlb edilən vəsaitlər isə 700 mln. manat təşkil etmişdir. 9 ayın sonuna depozit hərracları və notların yerləşdirilməsi vasitəsilə cəlb edilən vəsaitin qalığı ilin əvvəli ilə müqayisədə 44.4% azalmışdır ki, bu da pul təklifinə artırıcı təsir etmişdir.

Cari ilin 9 ayında açıq bazar əməliyyatları olaraq depozit əməliyyatları və notların yerləşdirilməsi üzrə faiz dərəcələri faiz dəhlizinin aşağı həddinə yaxın səviyyədə formalaşmışdır.

Dəhlizin aşağı həddinin aşağı salınması ilə sterilizasiya əməliyyatları üzrə gəlirliyin aşağı düşməsinə baxmayaraq, tələb təklifi keçirilən depozit hərraclarında 3.3 dəfə, notların yerləşdirilməsi üzrə hərraclarda isə 2.8 dəfə üstələmişdir. Bu bank sistemində izafi likvidliyin yüksək olaraq qalmaqda olduğunu göstərir.

Qrafik 24. Mərkəzi Bank tərəfindən yerləşdirilmiş notların həcmi və gəlirliyi



Mənbə: AMB

Depozit və qısamüddətli notların yerləşdirilməsi üzrə əməliyyatlar izafi pul təklifinin sterilizasiyası ilə yanaşı pul bazarının inkişafı və bununla da, pul siyasəti üzrə əməliyyat çərçivəsinin təkmilləşdirilməsinə, banklararası bazarın inkişaf etdirilməsinə müsbət təsir göstərir. Mərkəzi Bankın sterilizasiya alətləri üzrə gəlirlik pul bazarının vacib reprezentativ göstəricisinə çevrilməklə digər maliyyə alətləri üzrə faiz dərəcələrinin səviyyəsinin formalaş-masına təsir göstərməkdədir. Eyni zamanda Mərkəzi Bankın emissiya etdiyi qısamüddətli notlar REPO bazarında təminat qismində fəal istifadə olunmaqdadır.

2019-ci ilin ötən dövründə məcburi ehtiyat normaları dəyişməz saxlanılmışdır. Məcburi ehtiyat normalarının ortalama mexanizmi əsasında tətbiqi davam etmişdir ki, bu da banklara likvidliyin çevik idarə edilməsinə müsbət təsir göstərən amillərdən biri olmuşdur. Aparılmış monitorinqlərin nəticələrinə əsasən hesabat dövrü üzrə bütün aylarda bankların Mərkəzi Bankdakı müxbir hesablarının toplam qalıqları dövr üçün məcburi ehtiyat kimi saxlanmalı olan cəmi vəsaitlərin həcmini əhəmiyyətli dərəcədə üstələmişdir.

3.3. Pul təklifi

2019-cu ilin 9 ayında pul təklifi inflyasiya hədəfi və iqtisadiyyatın pula olan tələbi nəzərə alınmaqla tənzimlənmişdir.

2019-cu ilin 9 ayı ərzində manatla pul bazası 7% artmış və dövrün sonuna 10217.3 mln. manat təşkil etmişdir. Vahid xəzinə hesabı qalığının və Mərkəzi Bankın sterilizasiya portfelinin dəyişimi pul bazasının trayektoriyasını müəyyənləşdirən başlıca amillər olmuşdur.

Hesabat dövründə manatla pul bazasının struktur elementi olan dövriyyədəki nağd pulun həcmi 11.8% artmış, manatla müxbir hesabların qalığı isə 26.8% azalmışdır.

2019-cu ilin 9 ayında manatla geniş pul kütləsi (M2) 10.7% artmış və dövrün sonuna 16217.4 mln. manat təşkil etmişdir.

Cədvəl 4. Pul aqreqatları, mln. manat

	01.01.19	**01.10.19**	*İlin əvvəlinə nəzərən %-lə artım*
M0	7601,4	8578,7	*12.9*
M1	12274,6	13485,8	*9.9*
M2	14643,6	16217,4	*10.7*
M3	24060,4	26550,6	*4.2*

Mənbə: AMB

Manatla pul kütləsinin (M2) strukturunda nağd pul kütləsi, fiziki şəxslərin əmanətləri və hüquqi şəxslərin depozitləri fərqli dinamika nümayiş etdirmişlər. Dövr ərzində nağd pul kütləsi 12.9% artmış, hüquqi şəxslərin manatla depozitləri 3% azalmış, fiziki şəxslərin manatla əmanətləri isə 21,2% artmışdır.

Dövr ərzində manatla tələb olunanadək əmanət və depozitlər 5.1%, müddətli əmanət və depozitlər isə 15.3% artmışdır. Hesabat dövründə geniş pul kütləsi (M3) 10.3% artmış və dövrün sonuna 26550.6 mln. manat təşkil etmişdir.

Qrafik 25. Pul aqreqatlarının dinamikası, mln. manat



Mənbə: AMB

2019-cu ilin 9 ayında bank depozitlərinin dollarlaşma səviyyəsində azalma meyili davam etmişdir. Belə ki, ilin əvvəli ilə müqayisədə milli valyutada müddətli əmanət və depozitlər 16.7%, xarici valyutada isə 10.5% artmışdır. Xarici valyutada əmanət və depozitlərin M3 pul aqreqatında xüsusi çəkisi dövrün əvvəlində 39.1% olduğu halda, dövrün sonuna 38.9%-ə enmişdir.

Qrafik 26. Dollarlaşma, %



Mənbə: AMB

Fiziki şəxslərin əmanətləri üzrə dollarlaşma 2019-cu ilin əvvəlindəki 62.5%-dən 9 ayın sonunda 55.7%-ə enmişdir.

İstifadə olunmuş qrafik və cədvəllər

Qrafiklər

Qrafik 1 İƏİT ölkələrində qabaqlayıcı iqtisadi aktivlik indeksləri ---------- 4

Qrafik 2 Sənaye məhsulu indeksi ---------- 5

Qrafik 3 Əmtəə qiymətləri indeksi ---------- 7

Qrafik 4 Dünya neft bazarı ---------- 8

Qrafik 5 Qlobal maliyyə indekslərinin dinamikası ---------- 9

Qrafik 6 Dollara qarşı ikitərəfli məzənnələrin dəyişimi---------- 10

Qrafik 7 Azərbaycanın ticarət tərəfdaşları üzrə iqtisadi artım proqnozu ---------- 11

Qrafik 8 Ticarət balansı---------- 13

Qrafik 9 Ticarət dövriyyəsində əsas ölkələr ---------- 13

Qrafik 10 2019-ci ilin 9 ayında bəzi məhsullar üzrə ixracın dəyişimi ---------- 14

Qrafik 11 2019-cu ilin 9 ayında bəzi məhsullar üzrə idxalın dəyişimi---------- 15

Qrafik 12 İstehlak bazarında satışların həcminin real dəyişməsi---------- 16

Qrafik 13 Əlavə dəyərin sektorlar üzrə bölgüsü ---------- 20

Qrafik 14 2019-cu ilin 9 ayında sahələr üzrə yaradılan əlavə dəyərin artımı---------- 21

Qrafik 15 İqtisadi fəal əhalinin sayı ---------- 22

Qrafik 16 Orta illik inflyasiya ---------- 23

Qrafik 17 12 aylıq inflyasiya ---------- 23

Qrafik 18 İnflasiyanın miqyası ---------- 24

Qrafik 19 İnflyasiyanın yüksəlməsini gözləyən ev təsərrüfatlarının payı ---------- 25

Qrafik 20 İstehsalçı qiymətləri indeksinin orta illik dəyişimi ---------- 26

Qrafik 21 Effektiv məzənnə indeksləri---------- 30

Qrafik 22 Faiz dəhlizinin parametrləri ---------- 31

Qrafik 23 Mərkəzi Bank tərəfindən cəlb edilən depozitlərin həcmi və gəlirliliyi ------- 32

Qrafik 24 Mərkəzi Bank tərəfindən yerləşdirilmiş notların həcmi və gəlirliliyi --------- 33

Qrafik 25 Pul aqreqatlarının dinamikası ---------- 35

Qrafik 26 Dollarlaşma ---------- 35

Cədvəllər

Cədvəl 1 İqtisadi artım proqnozları ---------- 11
Cədvəl 2 Ticarət şəbəkələrində xərc istiqamətlərinin payı ---------- 17
Cədvəl 3 İnvestisiya mənbələri ---------- 19
Cədvəl 4 Pul aqreqatları ---------- 34

Azərbaycan Respublikası Mərkəzi Bankı

Tel.: (+99412) 493 11 22

http://www.cbar.az

Ünvan: AZ1014, Bakı, R.Behbudov küçəsi, 90